








# Həştərxanlıların əziz və səmimi dostu









Ulu öndər Heydər Əliyevin azərbaycançılıq amalının şüurlarımızda və qəlblərimizdə möhkəm yer tutmasına yönəlmiş dövlət siyasətini, milli həmrəylik və diaspor quruculuğunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin bu sahədə həyata keçirdiyi fəaliyyət ardıcıl və sistemli səciyyə daşıyır. İllər öncə "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" - deyən ölkə başçısı bu vədini əməli işi ilə doğruldub, milli birlik və həmrəyliyə xidmət edən addımları ilə birləşdirici lider statusuna yüksəlib. Prezident İlham Əliyev ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızın eyni məqsədlər ətrafında konsolidasiyasına nail olmaqla, onlarda milli ruhun yüksəldilməsinə çalışmaqla, bu sahədə məqsədyönlü fəaliyyətin ideoloji-siyasi konturlarını müəyyənləşdirməklə bütün dünya azərbaycanlılarının dərin rəğbətini qazanıb.

Vahid ideologiya və milli-mənəvi dəyərlər sistemi ətrafında getdikcə daha sıx birləşən soydaşlarımız isə təkcə ölkə hüdudlarından kənarda Azərbaycan reallıqlarını yaymırlar, onlar həm də ölkəmizlə müxtəlif dövlətlərin sarsılmaz bağlarının yaranmasında möhtəşəm nəticələrə yol açan işlərin müəllifinə çevrilirlər. Milli-mənəvi birliyə sadiq qalan dünya azərbaycanlıları ümumxalq mənafelərinin həyata keçirilməsi naminə Azərbaycanın xaricində də üzərlərinə düşən missiyanı layiqincə yerinə yetirirlər, bu istiqamətdə ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi, Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilən, zamanın çağırışlarına adekvat olan siyasətdən irəli gələn vəzifələri layiqincə icra edirlər.

Bir amal, məslək uğrunda fəal mübarizə aparan və müxtəlif xarici ölkələrdə yaşayan azərbaycanlıların həmrəyliyinin daha möhkəm özüllər üzərində qurulması Prezident İlham Əliyevin genişmiqyaslı fəaliyyəti nəticəsində reallığa çevrilib və bu həmrəylik yeni yüksəliş dövrünü yaşayır. Bunun konkret nümunəsini Rusiyada fəaliyyət göstərən Azərbaycan diasporunun timsalında aydın şəkildə görmək mümkündür. İndi Rusiyada ictimai rəyin formalaşmasına belə təsir göstərə biləcək qüvvələrdən biri qismində azərbaycanlılar tərəfindən yaradılan müxtəlif ictimai təşkilatların adları ön planda çəkilir. Sözügedən kontekstdə Rusiya Federasiyasının Həştərxan şəhərində artıq aparıcı qüvvələrdən birinə çevrilən Azərbaycan diasporunun fəaliyyəti də hər zaman xüsusi olaraq qeyd edilir.

Həştərxan vilayəti, onunla eyni adı daşıyan şəhəri ilə Azərbaycanın tarixən mühüm əlaqələri olub. Günümüzdə Azərbaycan ilə səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğu, geniş imkanlara, zəngin təbii resurslara malik Həştərxan vilayətinin bir çox yerlərində Azərbaycan nişanələri görmək mümkündür. Bu həm də ondan irəli gəlir ki, ümummilli lider Heydər Əliyev hələ SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən Həştərxan vilayətinə xüsusi diqqət və qayğı göstərib. Bu gün isə Prezident İlham Əliyev Rusiya Federasiyasının müxtəlif subyektləri, o cümlədən Həştərxan vilayəti ilə hərtərəfli əməkdaşlığa böyük önəm verir.

Prezident İlham Əliyevin diqqət və qayğısını Rusiyada, eləcə də Həştərxanda fəaliyyət göstərən Azərbaycan diasporu da öz üzərində hər zaman hiss edir. Həm Həştərxan rəhbərliyi, həm də buradakı Azərbaycan diasporu bir məsələdə də ortaq mövqedədirlər ki, Azərbaycan ilə Rusiya arasında əlaqələr ümummilli liderin dövründə inkişafının yeni mərhələsinə qədəm qoyub və bu gün Prezident İlham Əliyev tərəfindən daha yüksək səviyyəyə çatdırılıb. Bu mənada o da tamamilə təbiidir ki, Azərbaycan diasporu Həştərxanın vilayət rəhbərliyi və ictimaiyyəti tərəfindən ən etibarlı tərəfdaş və yaşanan inkişafa mühüm töhfələr verən layiqli tərəfdaşlar kimi qəbul olunur.

Prezident İlham Əliyevin tövsiyələrinə layiqincə əməl edən diaspor təşkilatlarımız Rusiyanın ictimai həyatında fəal iştirak edir, Azərbaycanla dostluğun daha da möhkəmlənməsinə böyük töhfələr verirlər. Müstəqil Azərbaycanı onun sərhədləri çərçivəsindən kənarda layiqincə təmsil edən, tanıdan belə təşkilatlardan biri də səmərəli fəaliyyəti ilə mühüm uğurlar qazanmış Ümumrusiya Azərbaycan Konqresidir (ÜAK). Rusiyada yaşayan soydaşlarımızın ən böyük təşkilatlarından biri olaraq qəbul edilən bu qurum ölkələrimiz arasında qarşılıqlı münasibətlərin daha da dərinləşməsinə özünəməxsus böyük töhfələr verməkdədir.

Rusiya vətəndaş cəmiyyətinin ayrılmaz hissəsinə çevrilən ÜAK-ın fəaliyyəti son illərdə yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) sədri Leyla Əliyevanın təşkilatın Mərkəzi Şurasının Rəyasət Heyətinin üzvü seçilməsi ÜAK-ın fəaliyyətinin daha fəal hala gəlməsinə, sıralarının isə sürətlə genişlənməsinə səbəb olub. Bu fəaliyyəti ilə Leyla Əliyeva Azərbaycan diasporunun nümayəndələrini cəlb etməklə xalqlarımız arasında mədəni və dostluq əlaqələrinin möhkəmlənməsi üzrə məqsədyönlü işlər aparır, Azərbaycan-Rusiya münasibətlərinin genişlənməsinə böyük töhfələr verir.

Dövlət başçısının xüsusi qayğısı nəticəsində Rusiyanın demək olar ki, bütün regionlarında öz strukturlarını yaratmış konqresin Həştərxan regional bölməsi də ötən dövr ərzində cəmiyyətə inteqrasiya, burada yaşayan azərbaycanlıların təşkilatlanması, hüquq və azadlıqlarının müdafiəsi, milli-mənəvi dəyərlərinin qorunması, ictimai-siyasi fəallığının artırılması istiqamətində mühüm işlər görüb. Həştərxan regional bölməsi ÜAK-ın ən iri strukturlarından biridir. Ona görə də Xəzər dənizində Azərbaycanla sərhəd qonşuluğuna malik Rusiyanın Həştərxan vilayətində yaşayan azərbaycanlılar fəaliyyətləri ilə artıq sanballı bir qüvvəyə çevrildiklərini sübuta yetiriblər. Həştərxan şəhərində yaşayan 25 mindən çox azərbaycanlının formalaşdırdığı diasporun üzvləri kifayət qədər fəallıq nümayiş etdirir, Azərbaycan reallıqlarının, burada yaşanan inkişafın həm Rusiya, həm də dünya ictimaiyyətinə çatdırılmasında mühüm bir missiyanı layiqincə yerinə yetirirlər.

Vətənimiz barədə yüksək fikirdə olan Həştərxan ictimaiyyətinin Azərbaycana, xalqımıza və onun insanlarına vurğunluğunu daha da artıran ən mühüm məqam burada ümummilli lider Heydər Əliyevə ucaldılan abidə, o cümlədən adını daşıyan, gözəlliyi ilə riqqət doğuran parkdır.






Təkcə Azərbaycanda deyil, bütün keçmiş Sovet İttifaqı, postsovet məkanında böyük siyasi xadim kimi qəbul olunan Heydər Əliyevin abidəsinin Həştərxan vilayətində də ucaldılması təsadüfi deyil. Çünki ulu öndər istər sovetlər, istərsə də postsovet dövründə Rusiya, eləcə də onun vilayətləri, o cümlədən Həştərxanla Azərbaycanın, onun ayrı-ayrı inzibati ərazi strukturlarının, xalqlarımızın qarşılıqlı münasibətlərinin inkişafına böyük töhfələr verib. Ona görə Heydər Əliyevin Həştərxandakı abidəsi rusiyalıların və azərbaycanlıların qardaşlığının, dostluğunun, onların ruhən və qəlbən birliyinin rəmzi kimi qiymətləndirilir.

Sülhün möhkəmləndirilməsi, humanizmin və şəfqətin təşviq edilməsi mövqeyindən çıxış edən, habelə humanitar və sosialyönümlü tədbir və layihələrin təşəbbüskarı, eləcə də təşkilatçısı olan Heydər Əliyev Fondunun dəstəyi və himayəsi ilə Rusiyanın Həştərxan vilayətində çoxlu iri sosial və infrastruktur layihələri həyata keçirilib. Bunlardan biri Həştərxan şəhərinin 11 nömrəli orta məktəbinin yenidən qurulmasıdır. Şəhərin Bakı küçəsində yerləşən və ulu öndər Heydər Əliyevin adını daşıyan bu məktəbdə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə genişmiqyaslı rekonstruksiya işləri aparılıb, müasir standartlara uyğun iki yeni korpus inşa olunub, şagirdlərin təhsilinin lazımi səviyyədə təşkili üçün şərait yaradılıb, mebel və texniki avadanlıqlarla təchiz edilib.

Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın "Həştərxan vilayəti qarşısındakı xidmətlərinə görə" ordeni, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Həştərxan vilayəti qarşısındakı xidmətlərinə görə" və III dərəcəli "Knyaginya Olqa" ordenləri ilə təltif olunması Həştərxanda həyata keçirilən layihələrə verilən böyük dəyərin göstəricisidir.

Məlum həqiqətdir ki, Rusiya ilə Azərbaycan arasında qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynayan subyektlər qismində həm də ölkələrimizin müxtəlif rayon və şəhərləri çıxış edir. Onlar ümumi tərəqqiyə xidmət edən siyasətin vacib elementlərinə çevrilirlər, bir-biri ilə qurduğu münasibətlərlə əməkdaşlığa töhfələr verirlər. Bu xüsusda xatırlatmaq yerinə düşərdi ki, Bakı şəhərinin Nərimanov rayonu ilə Həştərxan vilayəti arasında sıx dostluq əlaqələri mövcuddur. Bu əlaqələr gündən-günə inkişaf edir və möhkəmlənir. Nərimanov rayonu tərəfindən bu əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində son illərdə xeyli iş görülüb. Həştərxan şəhər təsərrüfatının və infrastrukturun yenidən qurulmasında, təhsil sahəsinin inkişaf etdirilməsində Azərbaycandan olan iş adamlarının iştirakı davamlı surətdə artır. Bütün bunlar isə ölkələrimiz və şəhərlərimiz arasında əlaqələrin daha da yaxşılaşması işinə xidmət edən əsas amillər sırasında yer alır.

Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkin də bütün bunları yüksək qiymətləndirir: "Mən şəxsən Azərbaycan Prezidenti İlham Əliyevə və onun bütün komandasına minnətdaram ki, bizim regiona xüsusi diqqət yetirilir. Bizdə çoxlu birgə humanitar layihə həyata keçirilib. Növbəti addım iqtisadi layihə - Azərbaycan Biznes Mərkəzidir. Bu mərkəz Rusiya və Azərbaycan biznesinin daha səmərəli qarşılıqlı fəaliyyət göstərməsinə imkan verəcək".

Xatırladaq ki, dekabrın 16-da Həştərxanda Azərbaycan Biznes Mərkəzinin tikiləcəyi ərazidə xatirə kapsulunun qoyulması mərasimi keçirilib. Mərkəzin açılışı gələn il üçün nəzərdə tutulub. Bu günlərdə isə Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olan Aleksandr Jilkin Həştərxan sakinlərinin Azərbaycana xüsusi rəğbət bəslədiklərini bir daha diqqətə çatdıraraq vilayətdə ümummilli lider Heydər Əliyevin abidəsinin ucaldılmasını və ətrafında abad parkın salınmasını növbəti dəfə Azərbaycan tərəfindən edilən gözəl hədiyyə kimi qiymətləndirib. Qeyd edib ki, hazırda yeni ailə quran gənclərin həmin parka gələrək ümummilli liderin abidəsi önünə gül dəstələri qoyması artıq ənənə halını alıb.

Prezident İlham Əliyevin təhsil sahəsində Azərbaycanla Həştərxan vilayəti arasında fəal inkişaf etməkdə olan qarşılıqlı əlaqələrə, Azərbaycanın Rusiya, o cümlədən Həştərxan regionu ilə əlaqələrinin inkişafına verdiyi böyük töhfə nəzərə alınaraq Həştərxan Dövlət Universitetinin (HDU) Elmi Şurasının 24 oktyabr 2016-cı il tarixli iclasında ona bu ali məktəbin "Fəxri professor"u adı verilməsi haqqında qərar qəbul edilib. Həştərxan Dövlət Universitetinin "Fəxri professor"u diplomunu Azərbaycanın dövlət başçısına təqdim edən Aleksandr Jilkin Həştərxandakı Azərbaycan diasporunun səmərəli fəaliyyət göstərdiyini də bildirib və qeyd edib ki, bir çox sahələrdə, o cümlədən iqtisadi və sosial sahələrdə Azərbaycan diasporu çox işgüzar və etibarlı fəaliyyət göstərir. Həştərxanda yaşayan azərbaycanlılara göstərilən xoş münasibətdən razı qalan Prezident İlham Əliyev soydaşlarımızın özlərini bu şəhərdə doğma evlərindəki kimi hiss etdiklərinə diqqət çəkərək ölkələrimiz arasında əməkdaşlığın bundan sonra da inkişaf edəcəyini söyləyib, yaxın zamanlarda Azərbaycanın ilk ticarət nümayəndəliyinin Moskvada açılacağını, sonradan isə Rusiyanın digər regionlarında, o cümlədən Həştərxanda da ticarət-biznes nümayəndəliyinin fəaliyyətə başlamasının nəzərdə tutulduğunu qeyd edib.

Bütün bunlar nəticə etibarı ilə Azərbaycan diasporunun Həştərxanda mövqelərinin daha da güclənməsinə, vilayət ictimaiyyəti ilə yüksək münasibətlərinin yaranmasına əlverişli zəmin yaradır. ÜAK-ın Həştərxan regional bölməsi də güclü Azərbaycan dövlətinin və Həştərxan rəhbərliyinin dəstəyini hər zaman öz üzərində hiss edir. Bu kontekstdə doğma dilimizi, milli-əxlaqi dəyərlərimizi, azərbaycanlıların bir xalq, millət kimi formalaşdırdığı şanlı tarixi və vətənimizin şərəfini qorumaq kimi üzərimizə düşən müqəddəs vəzifəni layiqli şəkildə yerinə yetirməyə çalışırıq. Həmçinin Həştərxan icmasına sıx inteqrasiya fonunda vilayətlə Azərbaycan arasında qarşılıqlı əlaqələrin daha intensiv şəkildə inkişafına nail olmaq fəaliyyətimizin prioritet istiqamətlərindəndir.

Bütün bunların nəticəsidir ki, Azərbaycan diasporu Həştərxanın vilayət rəhbərliyi və ictimaiyyəti tərəfindən ən etibarlı tərəfdaş və yaşanan inkişafa mühüm töhfələr verən zümrə kimi qəbul olunur. Təsadüfi deyil ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq əlaqələrinin inkişafındakı xidmətlərinə və diaspor quruculuğu sahəsindəki səmərəli fəaliyyətinə görə ÜAK-ın Həştərxan regional bölməsinin sədri Ədalət Hüseynov Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycan Respublikasının "Tərəqqi" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Azərbaycanın diaspor təşkilatlarında çalışan gənclər ictimai-siyasi proseslərdə həmişə fəal iştirak ediblər. Ölkəmizin hüdudlarından kənarda dövlətimizin təəssübünü çəkən, Vətənə xidmət işini öz amalına çevirən gənclər ordumuz intellekti, yüksək vətənpərvərliyi və fəallığı ilə Azərbaycan dövlətinə, millətinə layiqincə xidmət edir, ölkəmizi beynəlxalq aləmdə uğurla tanıdırlar.

Bu gün Azərbaycan diasporunu təmsil edən müxtəlif təşkilatlarla yanaşı, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının 350 nəfər gənci birləşdirən Həştərxan bölməsi də vilayətin ictimai-siyasi həyatında fəal iştirak edir. İndiyədək RAGT tərəfindən Həştərxanda çoxsaylı, o cümlədən təhsil sahəsində layihələr həyata keçirilmişdir. Həştərxan Vilayət Administrasiyası gənclər təşkilatları arasında ən yüksək qiyməti dəfələrlə RAGT-nin regional bölməsinə vermişdir.

Həştərxana səfəri zamanı RAGT-nin Həştərxan bölməsinin üzvləri ilə görüşən Leyla Əliyeva bölmənin fəaliyyətini yüksək qiymətləndirmiş, dəyərli tövsiyələrini vermişdir.

Hazırda xarici ölkələrdə təhsil alan azərbaycanlı gənclərin Azərbaycanın milli maraqlarının müdafiəsi, xalqımızın tarixi və müasir həyatı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, zəngin mədəni irsimizin təbliği sahəsində uğurlu layihələr həyata keçirməsi böyük əhəmiyyət kəsb edir. Dünyanın müxtəlif regionlarında - Avropa, Amerika, Asiya, MDB məkanında fəaliyyət göstərən azərbaycanlı gənclər təşkilatları Ermənistanın işğalçılıq siyasəti, törətdiyi vandal aktları, dünyada analoqu olmayan Xocalı soyqırımı barədə yaşadıqları ölkələrin ictimaiyyətinin, beynəlxalq təşkilatların, müxtəlif ölkələrin parlament və hökumət üzvlərinin məlumatlandırılması məqsədilə müxtəlif kampaniyalar təşkil edir, elmi-praktik konfranslar, etiraz aksiyaları keçirir.

Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində Həştərxan vilayəti ilə formalaşan yüksək əməkdaşlıq modeli iki ölkənin xalqları və regionları arasında dostluğu daha da dərinləşdirməklə yanaşı, burada yaşayan azərbaycanlıların qürur və iftixar mənbəyinə çevrilib. Bu prosesə öz töhfəsini verən Həştərxandakı Azərbaycan diasporu üzərinə düşən məsuliyyətdən, qarşısına qoyulan vəzifədən irəli gələrək bundan sonra da həm əlaqələrin inikşafında, həm də daha sıx təşkilatlanaraq Azərbaycan həqiqətlərinin Rusiya ictimaiyyətinə çatdırılmasında öz missiyasını yerinə yetirməkdə davam edəcək.

***Elvin HÜSEYNOV,***
*Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının Həştərxan bölməsinin sədri*







